**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 46

Bakı şəhəri "23" iyun 2010 il

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin bir sıra müəssisələrinin adlarının dəyişdirilməsi barədə"**

"Azərbaycan Respublikasının Dəvəçi rayonunun Şabran rayonu adlandırılması haqqında" Azərbaycan Respublikasının 2 aprel 2010-cu il tarixli 983-IIIQ nömrəli Qanununu və "Bakı şəhərinin Əzizbəyov rayonunun Xəzər rayonu adlandırılması haqqında" Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli 1009-IIIQ nömrəli Qanununu rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Dəvəçi Rayon Mərkəzi Xəstəxanası Şabran Rayon Mərkəzi Xəstəxanası adlandırılsın.
2. Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Dəvəçi rayon şöbəsi və Əzizbəyov rayon şöbəsi müvafiq olaraq Şabran rayon şöbəsi və Xəzər rayon şöbəsi adlandırılsın.
3. Dəvəçi rayon Gigiyena və Epidemiologiya Mərkəzi Şabran rayon Gigiyena və Epidemiologiya Mərkəzi, Əzizbəyov rayon Gigiyena və Epidemiologiya Mərkəzi Xəzər rayon Gigiyena və Epidemiologiya Mərkəzi, Dəvəçi Rayonu Profilaktik Dezinfeksiya Şöbəsi isə Şabran Rayonu Profilaktik Dezinfeksiya Şöbəsi adlandırılsın.
4. Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin baş direktoru Ş.Musayevə, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova və Şabran Rayon Mərkəzi Xəstəxanasının baş həkimi İ.Osmanova tapşırılsın ki, bu əmrdən irəli gələn məsələlər həll edilsin.

5. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, Nazirliyin nomenklaturasına daxil olan aidiyyəti işçilərin şəxsi işlərində və əmək kitabçalarında müvafiq dəyişikliklərin aparılması təmin edilsin.

6. Əmrin icrasına nəzarət Nazir müavinləri A.Vəlibəyov və N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

# AZƏRBAYCAN RESPUBLİKASININ
# QANUNU

**Bakı şəhərinin Əzizbəyov rayonunun Xəzər rayonu adlandırılması haqqında**

**Azərbaycan Respublikasının Milli Məclisi q ə r a r a a l ı r :**

**I. Bakı şəhərinin Əzizbəyov rayonu Xəzər rayonu adlandırılsın, Əzizbəyov rayon inzibati ərazi vahidi Xəzər rayon inzibati ərazi vahidi hesab edilsin.**

**II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 may 2010-cu il**
**№ 1009-IIIQ**

# AZƏRBAYCAN RESPUBLİKASININ
# QANUNU

## Azərbaycan Respublikasının Dəvəçi rayonunun Şabran rayonu adlandırılması haqqında

Azərbaycan Respublikasının Milli Məclisi **q ə r a r a   a l ı r :**

I. Azərbaycan Respublikasının Dəvəçi rayonu Şabran rayonu adlandırılsın, Dəvəçi rayon inzibati ərazi vahidi Şabran rayon inzibati ərazi vahidi hesab edilsin.

Dəvəçi şəhər inzibati ərazi dairəsi tərkibindəki Dəvəçi şəhəri Şabran şəhəri adlandırılsın, Dəvəçi şəhər inzibati ərazi dairəsi Şabran şəhər inzibati ərazi dairəsi hesab edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 2 aprel 2010-cu il**
**№ 983-IIIQ**